# Fyodor Dostoyevski

# EV SAHİBƏSİ

Ruscadan tərcümə:
Məmməd Qocayev

qanun nəşriyyatı

Фёдор Достоевский

# ХОЗЯЙКА

Kasıb, utancaq və xəyallara dalmış gənc ziyalı Ordınov tənha həyat yaşayır, elmlə məşğul olur, lakin daxili dünyası boşdur. Bir gün o, təsadüfən qəribə bir qadın – Katerina ilə tanış olur. Katerina bir vaxtlar zorla evləndirilmiş, indi isə yaşlı və mistik bir adamın himayəsindədir.

Ordınov Katerinaya aşiq olur və onu bu vəziyyətdən xilas etməyə çalışır. Lakin bu sevgi məhəbbətdən çox xəstə bir asılılığa, ruhi sarsıntıya çevrilir.

"Ev sahibəsi"nin süjet xətti, xarakterləri və münaqişələri bir qədər mücərrəd qurulub: zəif ürəklər üçün azad seçim deyilən şey yoxdur, onları dəhşətə gətirən şey məhz azad seçim məsələsidir.

**Фёдор Достоевский   ХОЗЯЙКА**
**Fyodor Dostoyevski   EV SAHİBƏSİ**
Bakı, Qanun Nəşriyyatı, 2025, 136 səh.

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 13.10.2025

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Ruscadan tərcümə: | Məmməd Qocayev |
| Redaktor: | Əziz Rzazadə |
| İllüstrasiya: | Viktorin Zaxarenko |
| Korrektor: | Vüqar Babazadə |
| Mətn dizaynı: | Günay Seyidli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-11-9

© Qanun Nəşriyyatı, 2021; 2025
© F.Dostoyevski, 1847

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# Birinci hissə

## I

Ordınov, nəhayət, mənzilini dəyişməyə qərar verdi. Onun mənzil kirayələdiyi evin sahibəsi, çox yoxsul, yaşlı dul qadın və məmur arvadı ayın birini, yəni kirayə müddətini gözləmədən, hansısa gözlənilməz bir səbəbdən Peterburqdan çıxıb harayasa əyalətə, qohumlarının yanına getdi. Cavan oğlan kirayə müddətini axıracan qalmaqda davam edərək, bu köhnə bucaq haqqında düşünür və bu mənzili atıb getməli olacağına təəssüflənirdi: o, yoxsul idi, mənzil kirayələmək isə baha başa gəlirdi. Ev sahibəsi çıxıb gedəndən sonra, elə ertəsi gün o, furajkasını götürüb Peterburq dalanlarını dolaşmağa başladı, evlərin darvazalarına vurulmuş bütün elanları gözdən keçirərək, mümkün qədər daha tutqun, daha çoxadamlı və daha əsaslı ev seçmək istəyirdi ki, bu cür evlərdə hansısa yoxsul kirayənişinlərin öz növbəsində kirayəyə verdikləri bucaq tapmaq daha asan idi.

O artıq çoxdandır ki, səylə mənzil axtarırdı, amma birdən-birə onda yeni, demək olar ki, indiyədək ona məlum olmayan duyğular baş qaldırdı. O, əvvəlcə dalğın və etinasız halda, sonra isə diqqətlə, nəhayət, güclü bir maraq içində ətrafa nəzər yetirməyə başladı. Bütün bu xırda həyat və gündəlik çərən-pərən, haradasa özünün ağır zəhmət bahasına, qan-tər içində və müxtəlif vasitələrlə əldə etdiyi isti yuvasında rahatlanmağa və sakitləşməyə ömrü boyu canfəşanlıqla, bununla belə, əbəs yerə can atan Peterburq insanının çoxdan zəhləsini tökmüş bu qələbəlik, səs-küy, hərəkət, bu yeni şeylər, yeni vəziyyətlər – bütün bu bayağı və kədər dolu yeknəsəq həyat, əksinə, onda hansısa sakit, sevinc dolu, işıqlı bir duyğu oyatdı. Onun solğun çöhrəsi yüngül bir qızartı ilə allandı, gözləri sanki yeni bir ümidlə parladı və soyuq, təmiz havanı hərisliklə və sinə dolusu ciyərlərinə çəkməyə başladı. Ordınov özündə son dərəcə böyük bir yüngüllük hiss etdi.

O, daim sakit, tamamilə tənha bir həyat sürürdü. Təxminən üç il bundan əvvəl elmi dərəcə alaraq bir qədər azad nəfəs aldı, indiyədək uzaqdan-uzağa tanıdığı bir qocanın evinə getdi və otaq xidmətçisinin razılaşaraq onun barəsində bir daha məlumat verəcəyini xeyli gözləməli oldu. Sonra qədimi, zamanın təlatümlərindən salamat çıxmış mülkədar evlərində hələ də qalmaqda olan hündür tavanlı, yarıqaranlıq

və bomboş, son dərəcə cansıxıcı bir zala daxil oldu və oradakı yaxası ordenlərlə dolu və saçları ağappaq ağarmış qocanı, atasının xidməti yoldaşı və özünün qəyyumunu gördü. Qoca cüzi məbləğdə pulu ona təhvil verdi. Bu məbləğ borcları ödəməkçün ulu babanın yerli-dibli satılmış mirasından qalan pul idi. Ordınov mirası etinasız halda qəbul etdi, öz qəyyumu ilə birdəfəlik vidalaşdı və küçəyə çıxdı. Soyuq və tutqun bir payız axşamı idi; cavan oğlan fikirliydi və hansısa anlaşılmaz bir qüssə onun qəlbini didib parçalayırdı. Onun gözlərində alov vardı; özündə növbəylə qızdırma, titrətmə və hərarət hiss edirdi. Yol boyu hesablayıb gördü ki, özünün bu vəsaiti onun iki-üç, hətta yarıac-yarıtox dördillik yaşamasına bəs edər. Qaranlıq düşmüşdü, yağış damcılayırdı. O, rastına çıxan elə birinci mənzili sövdələşib kirayələdi və bir saatdan sonra ora köçdü. Orada sanki monastıra düşdü, sanki dünyadan təcrid olundu. İki ildən sonra tamamilə adamayovuşmaz oldu.

Özü də hiss etmədən adamayovuşmaz oldu; hələlik onun heç ağlına belə gəlmirdi ki, səs-küylü, gurultulu, daim həyəcanlı, daim dəyişkən, daim harayasa səsləyən, geci-tezi daim qaçılmaz olan başqa bir həyat da varmış. Doğrudur, o bu barədə eşitməmiş deyildi, amma bu həyata bələd də deyildi və heç vaxt onu axtarmamışdı. Lap uşaqlıqdan müstəsna bir həyat sürmüşdü; indi bu müstəsnalıq aydınlaşdı. Ən

dərin, əsla doymaq bilməyən, insanın bütün həyatını əlindən alan və Ordınov kimi məxluqlara başqa, praktik həyat fəaliyyətində bir sığınacaq belə qoymayan bir ehtiras onu içindən yeyirdi. Bu ehtiras elm idi. Bu, hələlik onun cavanlığını əlindən alır, yavaş-yavaş gecə yuxusuna məstedici bir zəhər qatır, sağlam yeməyi və onun bürkülü bucağında heç vaxt olmayan təmiz havanı əlindən alırdı və Ordınov öz ehtirasının məstliyində bunları görmək belə istəmirdi. O, cavan idi və hələ bundan artıq bir şey istəmirdi. Bu ehtiras onu zahiri həyat üçün körpə halına salmış və artıq buna ehtiyac yarananda insanlar arasında özünə hansısa bir bucaq axtarıb tapmaq üçün onları birdəfəlik kənarlaşdırmaq imkanından məhrum etmişdi. Elm bəzi diribaş adamların əlində kapitaldır; Ordınovun ehtirası isə onun özünə qarşı yönəlmiş silah idi.

İndiyədək onu məşğul edən hər bir digər, hətta ən xırda fəaliyyətdə belə onunçün öyrənmək və bilmək üçün lazım olan aydın məntiqi səbəbdən daha çox şüursuz bir həvəs vardı. Hələ uşaq yaşlarında ikən o, qəribə bir məxluq kimi ad çıxarmışdı və yoldaşlarına bənzəmirdi. O öz valideynlərini görməmişdi; özünün qəribə və adamayovuşmaz xarakteri ucbatından yoldaşlarından daim rəhmsizlik və kobudluq görmüşdü, bu səbəbdən, həqiqətən də, adamayovuşmaz və qaraqabaq olmuş, yavaş-yavaş müstəsnalığa meyil etmişdi. Amma onun tənha məşğələlərində heç vaxt,

hətta indinin özündə belə qayda və müəyyən sistem yox idi; indi onda təkcə ilk yaradıcılıq həyəcanı, yaradıcılıq ehtirası və hərarəti vardı. O özü üçün sistem yaratmışdı; bu sistem illər boyu yaranmışdı və onun qəlbində hələ qaranlıq, mücərrəd, amma necəsə heyrətamiz dərəcədə sevincək bir ideya obrazı yavaş-yavaş baş qaldırır, yeni, işıqlı forma kəsb edir və bu forma onun qəlbini parçalayaraq zahirə çıxmağa can atırdı; o bu formanın orijinallığını, həqiqiliyini və bənzərsizliyini hələ ürkək halda hiss edirdi: Ordınovda artıq yaradıcılıq gücü özünü büruzə verirdi; bu yaradıcılıq tədricən formalaşır və mətinləşirdi. Amma onun təcəssümü və yaranması hələ uzaqda, lap uzaqdaydı, bəlkə də, tamamilə mümkünsüz idi!

İndi o, qəfildən özünün lal səhrasından səs-küylü və gurultulu şəhərə çıxmış tərki-dünya bir zahid kimi küçələri dolaşırdı. Hər şey ona təzə və qəribə görünürdü. Amma o, ətrafında qaynayan və gurlayan bu aləmə o dərəcədə biganəydi ki, hətta özünün qəribə duyğularına təəccüblənmək barəsində heç düşünmürdü də. Sanki özünün adamayovuşmazlığını heç hiss etmirdi də, əksinə, uzun pəhrizdən sonra yemək və içmək verilmiş ac adam kimi onda hansısa sevincək və sərməstliyə, xoşluğa bənzər bir duyğu yaranmışdı; hərçənd mənzili dəyişmək kimi cüzi bir yeniliyin Peterburq sakinini, lap elə Ordınovu bu qədər həyəcanlandırması və onun başını dumanlandırması, əlbəttə,

qəribəydi; amma bu da həqiqətdir ki, indiyədək Ordınova, demək olar ki, bir dəfə də olsun *iş dalınca* şəhərə çıxmaq lazım gəlməmişdi.

Küçələri dolaşmaq get-gedə onun daha da xoşuna gəlirdi. O, *veyil* kimi hər şeyə hərisliklə baxırdı.

Amma o, indi də özünün əvvəlki əhvali-ruhiyyəsinə sadiq qalaraq, qarşısında açılan parlaq mənzərəni kitab kimi sətirarası oxuyurdu. Onu hər şey valeh edirdi; bir dənə də olsun təəssüratı boş buraxmır və ötüb-keçənlərin sifətinə düşüncəli nəzərlərlə baxır, bütün ətrafdakıların üz-gözünə diqqət yetirir, xalq dilinə məhəbbətlə qulaq kəsilir, sanki hər bir şeydə özünün tənha gecələrin sakitliyində gəlmiş olduğu nəticələrin dürüstlüyünü yoxlamaq istəyirdi. Onu tez-tez hansısa xırda bir şey təəccübləndirir, onda yeni fikir oyadırdı və o özünü beləcə hücrədə diri-diri dəfn etdiyinə ilk dəfə olaraq təəssüflənirdi. Burada hər şey daha sürətlə hərəkət edirdi; onun nəbzi bərk-bərk və tez-tez vururdu, tənhalığın susdurmuş olduğu, yalnız vəcdə gəlmiş və gərgin fəaliyyət nəticəsində itiləşmiş ağlı indi sürətlə və cəsarətlə işləyirdi. Üstəlik də onun üçün yad olan, indiyədək yalnız yaradıcılıq duyğusu vasitəsilə tanıdığı, ya da, yaxşısı budur, deyək ki, yalnız hiss etdiyi bu həyata necəsə şüursuz şəkildə daxil olmaq istəyirdi. Onun qəlbi biixtiyar məhəbbət və şəfqət həsrətiylə döyünməyə başladı. O, yanından ötüb-keçən insanlara diqqətlə baxırdı; amma insanlar